# Gözəllik və həqiqət şairi



Xalq üçün yaradan böyük sənətkarlar heç vaxt ölmürlər. Xalq onları yaddaşlarda, mahnılarda, dastanlarda yaşadır, haqqında müxtəlif rəvayətlər, əfsanələr yaradır. Azərbaycan ədəbiyyatını, mədəniyyətini saysız-hesabsız ulduzların sayrışdığı kəhkəşana bənzətmək mümkündür. Həmin sönməz ulduzlar arasında ən gur işıq saçanlardan, öz şəkli, adı, mövqeyi olanlardan biri də Molla Pənah Vaqifdir. Vaqif bizə elə özümüzün – xalqın ürəyindən axıb gəlmişdir. Onun həmişəcavan poeziyası şeir aşiqlərinin qəlbində, dilində üç əsr ömür sürüb, damla-damla bir yerə toplanıb və bu gün gördüyümüz ümmanı yaradıb. Dahi şair nəzərimizdə həm də böyük alim, Dədə Qorqud müdrikliyinə malik el ağsaqqalı kimi canlanır. Vaqifin saz çalıb-çalmamasından xəbərsizəm, ancaq cəsarətlə deyə bilərəm ki, bir bəstəkar təsiri bağışlayır. Belə təsəvvür onun şeirlərinin axıcılığından irəli gəlir. Qoşmalarını oxuyanda görürük ki, o, sadəcə şeir yazmayıb, doğma dilin musiqisini kəşf edib. Sözləri sanki nota düzüb. Onun hər qoşması, müxəmməsi, qəzəli bir nəğmədir. İnana bilmirsən ki, bu qədər insan təsvirini bir nəfər verə bilsin. Bu poetik nümunələri sanki bütün xalq yazıb-yaratmışdır. Bəli, şair xalqın estetik zövqünün ifaçısıdır. Ona görə də şeirləri hamımıza doğmadır.

Vaqif tükənməz xəzinədir. Hər bir ləlin üzərinə Azərbaycan xalqının adı yazılıb. Ona görə də bu incilər Yer üzərindəki bütün söz incilərindən seçilir. Vaqif dili mənalı və çox anlaşıqlıdır. Sözü, ifadə və cümlələri dərin olduğu qədər, təbii və şirindir. Dildə təbiilik və şirinlik isə xəlqiliyin mühüm şərtidir. Böyük istedadımız Molla Pənah Vaqif Azərbaycan ədəbiyyatının iftixarlarındandır. Lakin bu xəzinədə hələ üzə çıxarılmamış çoxsaylı incilər var.

Vaqifin vəsf etdiyi məhəbbətdə üç mühüm cəhət: gözəllik–vəfa–ağıl birləşir və bir-birini tamamlayır.

Şairin əsl adı Pənah, təxəllüsü isə Vaqifdir. Hörmətli elmli, bilikli şəxs olduğu üçün Molla adlandırılmışdır. Mollaxana təhsilini bitirdikdən sonra Vaqif həm müəllimlik etmiş, həm də aşıq şeiri üslubunda şeirlər yazmışdır. O, əfsanəyə dönmüş, babaların hikmətinə, nənələrin nağıllarına, anaların laylasına, cavanların məhəbbətinə qayıtmış bir şairdir.

Vaqif xalqın ruhunu, dilini, arzu və istəyini, zövqünü, gözəlliyini dərindən öyrəndikdən sonra Azərbaycan şeirinin bayrağını Şərq poeziyası göylərinə ucaldan, bununla da ədəbiyyatımızda realizm yolu açan bir şairdir. Xalqın ürəyi ilə bir vuran qəlbi yaradıcılığındadır. Həmin şeirlər isə ölməzdir. Vaqif Şərq poeziyasının bütün klassik formalarından bəhrələnib. Qəzəl, təcnis, müxəmməs, müstəzad, müəşşərə, müşairə, məsnəvi və mərsiyələr yazıb. Ancaq poetik irsinin böyük bir qismini aşıq poeziyasından qaynaqlanan, qoşma növündə yazılmış əsərlər təşkil edir. Şeirlərinin dili xalqın canlı danışığına çox yaxın olan şair, ərəb və fars mənşəli sözlərdən bacardıqca az istifadə edib.

Vaqif gözəlliyin mənbəyini obyektiv aləmdə görürdü və buna görə də onun üçün gözəllik meyarı təbiət özü idi. Gözəlliyin mənbəyi təbiətdir dedikdə elə təsəvvür etmək olmaz ki, təbiət özü tam şəkildə gözəllik verir. Vaqif şeirində insan gözəlliyi sanki rəssam fırçası ilə çəkilmişdir. Onun şeirlərini oxuyarkən istər-istəməz XVIII əsrin Azərbaycan gözəlləri geyimi, canlı boyaları və real cizgiləri ilə göz qabağına gəlir:

*Zər haşiyə al nimtənə üstündə,*
*Xallar üz yanında, çənə üstündə,*
*Buxağın altında, sinə üstündə*
*Zülfün burulması, hayıf ki, yoxdur.*

Əsrlərin imtahanından çıxıb unudulmayan belə əsərlər klassik irsimizin ən gözəl nümunələridir. Molla Pənah Vaqif də öz təravətini əsrlərcə qoruyub saxlayan klassik şeirimizlə əbədiyyət qazanan sənətkarlardandır. Yüksək zövq, incə hisslər, dərin və nikbin duyğular şairidir. Onun yaradıcılığında məhəbbət lirikası əsas yer tutur. Təsvir elədiyi gözəllər bütün məlahəti və daxili zənginliyi ilə seçilir. Vaqifin şeir dili ilə Vətənin – Azərbaycanın təbiəti, xalq məişəti və adətlərinin real mənzərəsi, azəri gözəllərinin təbii-mənəvi aləmi bütöv milli xüsusiyyətləri, zəngin koloriti ilə təsvir olunur.

Vaqif lirik şairdir. Məzmunca zəngin, formaca rəngarəng yaradıcılığa malik şairin lirikası iki xətt üzrə inkişaf edir. O həm də klassik şeir üslubunda (qəzəl, müstəzad, müxəmməs və s.) şeirlər yazmışdır. Qoşmalarının mühüm hissəsini gözəlliyin təsvirinə həsr etmişdir. Xarici gözəlliyin təsviri şairin şeirlərində əsas yer tutur. İnsan füsunkarlığını sadə, həyati təşbihlər vasitəsilə oxucunun gözü qarşısında məharətlə canlandıra bilir. Vaqif gözəlinin portretini şairin öz dilindən belə müşahidə edirik.

*Zülfləri sünbüldür, yanağı lalə,*
*Baxışı tən edir vəhşi qazalə,*

*Gözləri məstanə, ağzı piyalə,*
*Gərdəni minadır mənim sevdiyim.*

Vaqif gözəllikdən danışarkən təkcə zahiri keyfiyyətlərlə kifayətlənmir. Gözəlliyin əsl mənasını forma və məzmun vəhdətində, birliyində axtarır. İnsanın hüsnü, zahiri görkəmi ilə yanaşı, əxlaqı, rəftarı, kamalı da gözəl olmalıdır. Şair qadınları mənəvi cəhətdən gözəl, həyalı, abırlı, incə zövqə malik görmək istəyir. Yaradıcılığında vəfa, namus, etibar, sədaqət, səmimiyyət kimi mənəvi keyfiyyətlər gözəlliyin əsası, tərkib hissəsidir. Onun görmək istədiyi gözəlin ən azı aşağıdakı əqli, mənəvi xüsusiyyətləri gərəkdir:

*Öyünməsin kimsə, gözələm deyib,*
*Ayrı təhər olur halı gözəlin.*
*Günəş üzlü, şirin gözlü, xoşqılıq,*
*Ləblərindən axır balı gözəlin.*

*Yanağı gül, zülfü yasəmən gərək,*
*Dişləri inci, sinəsi gen gərək,*
*Haldan xəbər verən, dərdbilən gərək,*
*Heç olmaya məkrü alı gözəlin.*

Vaqifin ədəbi irsi olduqca sadə, ahəngdardır. Şeir dilimizin saflığı onun adı ilə bağlıdır. Bahar səhərlərində günəşin işığı necə xoş və parlaqsa, Vaqifin dili də bir o qədər hərarətli, sadə və aydındır. Belə sadəlik məna dolğunluğunu, fikirləri təbii, bədii təsir qüvvəsinə malik bir şəkildə əks etdirir.

M.P.Vaqif çoxcəhətli fəaliyyəti ilə xalqın həyat tərzində, məişətində, adət və ənənəsində yenilik, gözəllik axtarırdı. O, həyatın irəli sürdüyü bir sıra mütərəqqi məsələləri – qadın azadlığı, başqa xalqlarla dostluq əlaqəsi yaratmaq, maarifləndirmək, dünyəvi elmlərə yiyələnmək, məişətdə yüksək əxlaqi ənənələri qiymətləndirməyi təşviq edirdi. Xalqın ehtiyaclarına, qüssəsinə, nisgilinə bələd idi, onun dərdinə ürəkdən yanırdı. Bu kimi reallıqların məhsulu olan əsərlərində şairin maddi və mənəvi sıxıntılarının ifadəsi öz əksini tapmışdır.

Şifahi xalq şeirindən gələn və Vaqifin yaradıcılığında yüksək bir zirvəyə qalxan həyatsevərlik XVIII əsr Azərbaycan poeziyasının ən böyük nailiyyəti və üstünlüyüdür. Bu poeziya dilimizə gətirdiyi yeniliklərlə bu günə qədər realist şeirimizin inkişafı üçün əsas zəmin olub. Məhz buna görə də Vaqif şeirinin realist istiqamətini görən M.F.Axundov poeziyadakı realizmə meyli yüksək qiymətləndirib. Vaqif özündən sonra gələn şeirimizin inkişafına qüvvətli təsir göstərib. Şairin əldə olan şeir inciləri də onun zəngin yaradıcılığı haqqında geniş danışmağa imkan verir. Vaqif şeirinin böyük həyati qüvvəsini hiss edib ədəbiyyatımızın inkişafına göstərdiyi qüvvətli təsiri yüksək qiymətləndirən Firidun bəy Köçərli həsrətlə yazırdı: "Hərgah Vaqif və Vidadi kimi məşhur şairlər özgə millətlər arasında zühur etmiş olsaydılar, bişübhə indiyə kimi onların asar və əşari dəfəat ilə çapdan çıxıb əbnayi-millət içərisində yayılmışdı. Onların qəbri üstündə nişangah qoyulmuşdu və vəfatlarının əlli və yüz sənəlik yubileyi daha artıq cəlal və təntənə ilə yad olunmuşdu".

*Lakin təbii ki, F.Köçərlinin belə bədbin nəticəyə gəlməsi dövrünün naqislikləri ilə bağlıdır. Çünki 2016–2017-ci illərdə YUNESKO-nun yubileylər proqramı çərçivəsində təşkilatın baş qərargahında Azərbaycanın görkəmli şəxsiyyətlərinin və əlamətdar hadisələrin yubileylərinin qeyd edilməsinə dair təklifləri qəbul olunub. YUNESKO-nun xətti ilə Azərbaycan klassik ədəbiyyatının iki görkəmli nümayəndəsi – İmadəddin Nəsimi və Molla Pənah Vaqif ili elan edilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən Molla Pənah Vaqifin 300 illik yubileyinin təntənəli şəkildə qeyd olunması barədə sərəncam imzalanıb.*

Vaqif ölkənin ən ağır günlərində xalqdan ayrılmamış, şeirləri və ağıllı mülahizələri ilə kütlələrdə ruh yüksəkliyi oyatmağa çalışmış, yaşamaq eşqi, həyata bağlılıq tərənnüm etmişdir. "Bax", "Görmədim" və bu kimi ictimai mənalı şeirləri buna misaldır.

*Mən cahan mülkündə, mütləq, doğru halət görmədim,*
*Hər nə gördüm, əyri gördüm, özgə babət görmədim.*
*Aşinalar ixtilatında sədaqət görmədim,*
*Biətu iqraru imanu dəyanət görmədim,*
*Bivəfadan lacərəm, təhsili-hacət görmədim.*

Vaqif həm dünənin, həm bu günün, həm də sabahın – irəlidə, hələ bizdən sonra gələcək çox-çox əsrlərin şairidir. O bizim ölməz sələfimiz, ən əsası isə həqiqi xalq şairimizdir. Doğma torpağı ucaldan mütəfəkkirin adı yüzilliklər boyu yaşayacaqdır. Şeirimizə ana dilinin şirinliyini, cazibə və gözəlliyini ustalıqla gətirən M.P.Vaqif bu sahədə öz missiyasını ləyaqətlə yerinə yetirən öncüllərdəndir. XVIII əsrə qədər şeirimizdəki ərəb və fars tərkibli sözlərin xeyli hissəsi Vaqifin könül rübabına yaxın düşə bilmədi. Bəlkə də elə bu səbəbdən ölümündən çox sonra onun şeirlərini xalq arasından toplayıb çap etmək mümkün oldu.

Dağların qoynunda, buludların arasında, yüksəkdə Vaqif xatirəli bir şəhər var. Şairlər oylağı Şuşa şəhəri. Bu gün bir nisgil də ovqatımıza qəm notları qatır ki, Vaqifin böyük məhəbbətlə sevdiyi Şuşa erməni daşnaklarının işğalı altında inləməkdədir. Cıdır düzündəki yaralı məqbərəsi illərdir öz doğma ziyarətçilərinə həsrət qalıb. Amma inanırıq ki, özünün söylədiyi kimi, bu əhli-zülmlərin söndüyü gün mütləq gələcək. Yağı düşmən, M.P.Vaqifin dili ilə desək, Ağa Məhəmməd şah Qacarın taleyindən ibrət götürəcək. ❖

Aynurə Əliyeva
F.Köçərli adına Respublika Uşaq Kitabxanasının metodisti

